# Həftəlik
# *Bülleten*



**081**
**14 Fevral 2025**

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və layihələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

## Ötən il sənaye zonalarında 10 müəssisə fəaliyyətə başlayıb

2024-cü ildə İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan sənaye zonalarında 10 müəssisə fəaliyyətə başlayıb.

Agentliyin məlumatına görə, fəaliyyətə başlayan müəssisələr tərəfindən sənaye zonalarına ümumilikdə 48,6 milyon manat investisiya yatırılıb, 379 daimi iş yeri yaradılıb.

Bu müəssisələr avtomatlaşdırma və telemexanika sistemlərinin, elektrik paylayıcı avadanlıqların, elektrik yuvalarının və beton yarımstansiyaların, məsaməli hörgü bloklarının, dam və fasad örtüklərinin, havalandırma, yanğınsöndürmə avadanlıqları və müxtəlif metal məmulatlarının, divar kağızlarının, müxtəlif növ ayaqqabıların və s. məhsulların istehsalı ilə məşğul olurlar.



**Norm şirkəti tərəfindən beton zavodlarının inşasına başlanıldı.**

Balaxanı qəsəbəsində "Norm" ASC-yə məxsus 2 yeni beton zavodunun təməli qoyulub. "Norm" ASC-dən verilən məlumata görə, zavodlar 2025-ci ilin aprel ayından istehsala başlayacaq. Hər birinin istehsal gücü saatda 120 m3 beton təşkil edən bu zavodlar müasir texnika və avadanlıqla təchiz edilib və burada ən son texnologiyalarla əmtəə betonunun istehsalı nəzərdə tutulur. Şirkət tərəfindən üçüncü beton zavodunun Qarabağ bölgəsində inşası həyata keçiriləcək. Bu zavodun da istehsal gücü saatda 120 m3 beton təşkil edəcək. Beton zavodlarının işə düşməsi inşaat şirkətlərinə bir çox mühüm dövlət satınalmaları vasitəsilə həyata keçirilən, eləcə də özəl inşaat layihələrində beton tələbatının vaxtında və səmərəli qarşılanması üçün stabil təchizat imkanı təqdim edəcək. Norm Beton zavodlarında betonun təkrar emal edilməsi üçün xüsusi avadanlıq quraşdırılacaq. Bu avadanlıq vasitəsilə istehsal prosesində, betondaşıyan maşınların yuyulması zamanı, eləcə də tikinti sahəsində artıq qalan betonu xüsusi mexanizmlə təkrar emal etmək və tərkibindəki komponentləri beton istehsalında yenidən istifadə etmək mümkün olacaq. Bu da öz növbəsində, resursların səmərəli istifadə olunmasına və ətraf mühitə təsirin minimuma endirilməsinə şərait yaradacaq. Yüksək standartlarla sement istehsalından sonra eyni yanaşma ilə əmtəə betonu istehsalında da fəaliyyətə başlamağı şirkətə inşaat işlərinin keyfiyyətinə nəzarət etmək imkanı yaradacaq.



**Azərbaycanda armaturun istehsalı - 29% ARTIB**

2024-cü il ərzində Azərbaycanda 438,6 min ton armatur istehsal olunub. Bu barədə Dövlət Statistika Komitəsinin hesabatına istinadən xəbər verilir. Məlumata görə bu, 2023-cü ilin göstəricisi ilə müqayisədə 99,4 min ton və ya 29,3% artıb.

2023-cü ilin yekunlarına görə Azərbaycanda 339,2 min ton armatur istehsal edilmişdi. Cari ilin yanvar ayının 1-nə hazır məhsul ehtiyatı 23,8 min ton təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 12 ton (2 dəfə) artıb.



**ATMİA İdarə Heyəti Baş Katib Şahanə Sarı ilə birlikdə Rusiya Federasiyasının Azərbaycan nümayəndəsi cənab Ruslan Mirsayapov Zaqitoviç ilə görüşüb.**

12 fevral tarixində ATMİA İdarə Heyəti Baş Katib Şahanə Sarı ilə birlikdə Rusiya Federasiyasının Azərbaycan nümayəndəsi cənab Ruslan Mirsayapov Zaqitoviç ilə görüşüb. Görüş zamanı inşaat sektoru istiqamətində Rusiya-Azərbaycan şirkətlərinin gələcək əməkdaşlıq imkanları müzakirə edilib. Sonda cənab Ruslan Zaqitoviçə ATMİA Fəxri Üzvlük diplomu təqdim edilib və xatirə fotosu çəkilib.





**Qarabağ Universitetinin nümayəndələri ATMİA-nın qonağı olub.**

13 fevral tarixində ATMİA-nın Qarabağ Universiteti ilə əməkdaşlıq təşəbbüsü nəticəsində universitetin "Mühəndislik" fakültəsinin dekanı, t.e.ü.f.d. Hüseyn Mirzəyev və "Mexatronika" kafedrasının müdiri r.e.ü.f.d. Ramil Məmmədli ATMİA-nın qonağı olub. Görüş zamanı 10 aprel "İnşaatçılar Günü" münasibətilə hər il assosiasiya tərəfindən təşkil olunan "İnşaat Həftəsi"ndə həyata keçiriləcək layihələr və əməkdaşlıq imkanları müzakirə olunub. Baş Katib Şahanə Sarı tərəfindən əməkdaşlıq memorandumu imzalanması təklif edilib. Qeyd edək ki, sahibkarların aprelin ilk həftəsi Qarabağa səfəri nəzərdə tutulub.



**ATMİA-ya üzv şirkətlər və Dövlət Vergi Xidməti arasında Dəyirmi Masa təşkil olunub.**

14 fevral tarixində ATMİA-ya üzv şirkətlər və Dövlət Vergi Xidməti arasında Dəyirmi Masa təşkil olunub. Sahibkarlar onları maraqlandıran sualları ünvanlayıb, suallar aidiyati üzrə qeydə alınıb. Tədbirdə iştirak etməyən şirkətlərdən mövcud problemlərini 3 iş günü ərzində göndərməyi və dövlətimizin yaratdığı münbit şəraiti dəyərləndirməsini xahiş edirik.
Email: info@atmia.az



**ATMİA üzvü “QRANİT QP” MMC**

**Şirkət haqqında:**

QRANiT QP
DRILLING & BLASTING

ATMİA üzvü «Qranit QP» MMC 6 oktyabr 2011-ci il tarixində, Azərbaycan Respublikası daxilində sülhməramlı yeraltı və yerüstü qazma-partlayış xidmətləri göstərmək məqsədi ilə minimal işçi qüvvəsi və avadanlıqla üç mütəxəssis tərəfindən təsis edilmişdir. Şirkətin kadr ehtiyyatını təcrübəli partlayış işləri rəhbərləri, partladıcı mütəxəssislər, qazmaçılar, qazmaçı-maşinistlər və digər ixtisaslaşmış kadrlar təşkil edir. "Qranit QP" MMC illərdir ki ölkəmizdə fəaliyyət göstərən yerli və xarici şirkətlərlə çalışaraq, dağ-mədən sahəsində gedən layihələrdə qazma-partlayış xidmətləri göstərir və bu sahədə zəngin təcrübəyə malik olduğunu nümayiş etdirir.

«Qranit QP» şirkətinin direktoru Mürşüdova Rübabə.




**Əlaqə məlumatları:**

Ünvan:Azərbaycan, Bakı şəhəri, Şəfayət Mehdiyev 93 küçəsi AZ1041

Telefon: +994 12 433 20 63

E-mail: info@granit.az

www.granit.az

## ATMİA üzvü “MR Group ” MMC

**Şirkət haqqında:**

“MR Group” MMC 2007-ci ildə təsis edilmiş korporativ və fərdi müştərilərə yanğın təhlükəsizliyi sahəsində avadanlıqların təchizatı və onlara xidmətlərin göstərilməsi üzrə ixtisaslaşan özəl şirkətdir. Şirkət yanğın təhlükəsizliyi sahəsindəki fəaliyyət növlərinə görə İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş xüsusi lisenziyalara malikdir. ”MR Group” MMC Rusiya və Avropanın bu sahədə aparıcı istehsalçılarının məhsullarının satışını, gətirilməsini, quraşdırılmasını və sonraki xidmətini təklif edir. Bizim mütəxəssislər müvafiq avadanlıqların yerləşdirilməsi, quraşdırılması, dizaynı, satış sonrası xidməti və digər yüksək keyfiyyətli və zəmanətli xidmətlərin tam spektrini təqdim etməyə hazırdır.

“MR Group” MMC şirkətinin direktoru Məmmədov Nahid.

**Əlaqə məlumatları:**

Ünvan: Azərbaycan, Bakı şəhəri, Ə.Rəcəbli 221, MZ Plaza 5-ci mərtəbə.

Tel.: (+994 12) 409 71 00; (+994 70) 266 -80-50

E-mail: office@mrgroup.az

www.mrgroup.az



# ANONS




**Hörmətli sahibkarlar!**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyinin Bakı Regional Məşğulluq filialı ilə ATMİA üzvləri arasında 18.02.2025-ci il tarixində, saat 11:00-da dəyirmi masa tədbiri keçiriləcəkdir. Görüşdə yeni layihələr və Agentliyin fəaliyyəti ilə bağlı xüsusi təqdimat olacaq, ATMİA üzvlərinin sualları dinlənərək müzakirələr aparılacaqdır.

Tədbirin keçiriləcəyi ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Məsud Əlizadə küç., 135

Qeydiyyat: 010 250 03 24

ATMİA
info@atmia.az www.atmia.az

**Hörmətli sahibkarlar!**

Bildiririk ki, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi tərəfindən şirkətlərin İSO sertifikatlaşması barədə məlumat sorğusu keçirilir. Sizi sözügedən sorğuda iştirak etməyə dəvət edirik. Sorğuda iştirakınızla bağlı info@atmia.az mail ünvanına yazılı olaraq bildirməyinizi xahiş edirik.
Sorğu linki: https://forms.fillout.com/t/wbMBEiWnLsus
Son tarix: 20.02.2025

# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: SAUDI GLASS 2025**
**Tarixlər: 24 - 27 fevral 2025-ci il,**
**Məkan: Riyad Cəbhəsi Sərgi və Konfrans Mərkəzi – RFECC, Riyad (Səudiyyə Ərəbistanı)**
Səudiyyə Ərəbistanında pəncərələr, qapılar, fasadlar və şüşə sənayesi sərgisi.

**Sərginin adı: UZBUILD 2025**
**Tarixlər: 25-27 fevral 2025-ci il,**
**Məkan: CAEx Özbəkistan, Daşkənd (Özbəkistan)**
Özbəkistan beynəlxalq tikinti sərgisi

**Sərginin adı: CLIMATE WORLD MOSCOW 2025**
**Tarixlər: 25-28 fevral 2025-ci il,**
**Məkan: Ekspocentr' Krasnaya Presnya yarmarkaları, Moskva (Rusiya)**
Kondisioner və Havalandırma üzrə Beynəlxalq Ticarət Sərgisi

**Sərginin adı: WARSAW HVAC EXPO 2025**
**Tarixlər: 25 - 27 fevral 2025-ci il,**
**Məkan: Ptak Varşava Sərgisi, Varşava (Polşa)**
Polşada istilik, havalandırma və kondisioner sənayesi üçün ən böyük yarmarka

**Cəbrayılda söküntü işləri aparacaq şirkət axtarılır - TENDER ELAN EDİLDİ**

Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu açıq tender elan edir. Elanda Cəbrayıl rayonunun 1042 ailəlik (ikinci mərhələdə - 407 ailəlik) Şükürbəyli kənd məntəqəsinin salınması ilə əlaqədar mövcud dağılmış, sökülmüş binalarının və digər tikililərin söküntü işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Aygün Hüseynova, Satınalmalar üzrə menecerin müavini
Email : a.huseynova@sfdi.gov.az
Əlaqə telefonu : + 994 12 431 87 03



**Ağdamda 5 milyon manata qeyri-yaşayış binaları tikilir - TENDER ELANI**

Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti açıq tender elan edir.
Elanda "Ağdam rayonu Sarıcalı kəndində tikintisi nəzərdə tutulan qeyri-yaşayış binalarının tikinti-quraşdırma işləri"nin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Tural Rzayev, Baş məsləhətçi
Email : t.rzayev@afxbti.gov.az
Əlaqə telefonu : +994 12 526 47 90



**FHN rayonlarda 2 milyon manata evlər tikdirir - TENDER ELANI**

Fövqəladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Tikilməkdə Olan Obyektlərin Birləşmiş Müdriyyəti açıq tender elan edir.
Elanda Cənub bölgəsində 14 ədəd f/y/e-nin tikintisi, Qobustan rayonunda 1 ədəd f/y/e-nin, Gədəbəy şəhərində 24 mənzilli binada və Daşkəsən şəhərində 1 ədəd istinad divarının bərpası nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Rəşad Cəfərov, Müqavilə və satınalma sektorunun müdiri
Email : Jafarov.rashad@fhn.gov.az
Əlaqə telefonu : +994125122267



**"MİDA" Yevlaxda sosial evlərin tikintisinə 6 milyon manatdan çox - PUL XƏRCLƏYƏCƏK**

"MİDA" MMC açıq tender elan edir.
Elanda Yevlax şəhəri, R.Budaqov küçəsi 1 ünvanında 1,9 ha torpaq sahəsində çoxmənzilli yaşayış binalarının tikintisi ilə əlaqədar mühəndis-kommunikasiya şəbəkəsinin tikintisi, ərazinin abadlaşdırılması və yaşıllaşdırılması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Əliyev Vüqar, Satınalmaların təşkili şöbəsi-Şöbə müdirinin müavini
Email : vugar.aliyev@mida.gov.az
Əlaqə telefonu : (+99412) 594-54-01 239



**"ƏSASLI TİKİNTİ VƏ TƏCHİZAT" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ TENDER ELAN EDİR.**

"ƏSASLI TİKİNTİ VƏ TƏCHİZAT" Məhdud Məsuliyyətli Cəmiyyəti açıq tender elan edir.
Elanda Füzuli rayonu, Horadiz şəhəri, Heydər Əliyev Mərkəzinin cari təmiri işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Teymur Məmmədov, satınalma mütəxəssisi
Email: tender@culture.gov.az





**www.atmia.az**